*Prezident İlham Əliyev:*

# Sosial müdafiə bizim siyasətimizin əsas istiqamətlərindən biridir

**Ölkə başçısı "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda çıxışı zamanı bildirib ki, dövlətimizin həyata keçirdiyi siyasət Azərbaycan xalqının maraqlarını müdafiə edir**




Respublikamızda son 12 ildə həyata keçirilən iqtisadi siyasətin əsasən sosialyönümlü mahiyyət daşıması bir sıra reallıqlarla şərtlənmiş, cəmiyyətin sosial sifarişini əks etdirmişdir. Aztəminatlı vətəndaşların sosial müdafiəsi, istehsalçı və istehlakçının maraqlarının uzlaşdırılması, bir sözlə, ölkə əhalisinə diqqət dövlətimizin başçısı cənab İlham Əliyevin prezidentlik dövrünü səciyyələndirən prioritet istiqamətlərdən biri kimi diqqəti çəkir. Azərbaycanda sahibkarlığın sürətli inkişafı, bazar münasibətləri şəraitində qiymətlərin optimallaşdırılması əhalinin sosial baxımdan nisbətən zəif təbəqəsinin maraqlarını inkar etmir. Hər bir islahatın bu təbəqənin maraqlarına vura biləcəyi cüzi ziyan belə təxirəsalınmaz sosial müdafiə tədbirləri hesabına kompensasiya edilir.

Azərbaycanda sürətli inkişaf təbii olaraq dövlət quruculuğunun bütün sahələrinə, o cümlədən sosial sferaya ciddi sirayət edib və bir çox sosial proqram və layihələrdə real əksini tapıb. Əlbəttə, ölkəmizin iqtisadi qüdrətinin artması vətəndaşların sosial rifahının yüksəldilməsinə yönəlmiş layihələrin həyata keçirilməsinə zəmin yaradıb. Bir sözlə, sosial sahədə ardıcıl şəkildə həyata keçirilən layihələr onu göstərir ki, Azərbaycan hökuməti əhalinin maddi rifah halının yaxşılaşdırılması və onların bütün sosial qayğılarla əhatə olunmaları üçün güclü maliyyə imkanlarına və islahatları dərinləşdirmək iradəsinə malikdir.

Bir neçə gün əvvəl Prezident İlham Əliyevin əhalinin bir sıra kateqoriyalarının pensiyalarının, əmək haqlarının və müavinətlərinin artırılması haqqında verdiyi sərəncamlar dövlətin xalqa diqqət və qayğısının növbəti bariz nümunəsi oldu. Sosialyönümlü tədbirlərin həyata keçirilməsi, süni qiymət artımlarına qarşı mübarizə tədbirləri, pensiya və məvaciblərin 10 faiz artırılması əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılmış önəmli addımdır. Ekspertlərin qənaəti budur ki, hazırkı vəziyyətdə atılan bu addımlar ciddi sosial təşəbbüsdür. Bu, ona dəlalət edir ki, hakimiyyət insanları düşünür və ilk növbədə əhalinin rifah halının yüksəldilməsi üçün addımlar atır. Müqayisə üçün bildirək ki, neftlə zəngin olan ölkələrin, bu gün neftin qiymətinin düşməsindən əziyyət çəkən dövlətlərin böyük əksəriyyətində maaşların artırılması müşahidə edilməmişdir. Əksinə bir sıra ölkələrdə əmək haqları və pensiyalar ya gecikdirilir, ya da azaldılır. Bu fakt bir daha əyani şəkildə təsdiq edir ki, Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Prezident İlham Əliyev qeyd etdiyi kimi: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Onun problemlərini biz həll etməliyik. Ona görə bizim bütün səylərimiz, o cümlədən iqtisadi inkişaf bu məqsədə qulluq etməlidir. Ona görə Azərbaycanda güclü sosial siyasət aparılır, aparılacaq və imkan daxilində bütün sosial proqramlar daha da geniş şəkildə icra ediləcək."

Hazırda hər bir Azərbaycan vətəndaşı, o cümlədən özəl sektorun çoxsaylı təmsilçiləri ölkə başçısının yürütdüyü siyasət ətrafında sıx birləşərək hökumətin apardığı antiböhran tədbirlərini dəstəkləməli, bu prosesə töhfələrini verməlidirlər. Şübhəsiz ki, məhz xalq-iqtidar birliyinin nəticəsi kimi Azərbaycanın ən qısa zamanda üzləşdiyi böhranlı vəziyyətdən çıxacağına, sabit və tarazlı inkişaf yoluna qədəm qoyacağına qəti əminlik mövcuddur.

Ölkə Prezidenti İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda bildirib ki, dövlətimizin həyata keçirdiyi siyasət Azərbaycan xalqının maraqlarını müdafiə edir: "Mənim üçün Azərbaycan xalqının, Azərbaycan dövlətinin maraqları hər şeydən üstündür."

Dövlət başçısı nitqində sosial məsələlərə də geniş yer verib: "2015-ci ildə bütün sosial proqramlar icra edilmişdir. Mən bir daha demək istəyirəm, baxmayaraq ki, bu il də bizim maliyyə vəziyyətimiz əvvəlki illərdəki kimi deyil, bir dənə də olsun sosial proqram ixtisar edilməyəcək. Əksinə, bildiyiniz kimi, bu il maaşlar, pensiyalar, sosial müavinətlər qaldırılmışdır. Bu da bizim sosial siyasətimizin əsasını təşkil edir."

Ötən il ərzində, neftin qiyməti və buna paralel olaraq ölkənin gəlirlərinin kəskin şəkildə azaldığı bir dövrdə dövlət maksimum israrla bunun sosial sferaya təsirini azaltmağa səy göstərib. Bu məqsədlə hökumət maliyyə ehtiyatlarını sərf etməklə neft gəlirlərinin dörd dəfə aşağı düşdüyü bir şəraitdə milli valyutanın devalvasiyasının qarşısını maksimum almağa çalışıb. Baxmayaraq ki, bu proses qarşısıalınmaz oldu, lakin bütün hallarda dövlət xüsusilə aztəminatlı təbəqənin sosial vəziyyətinin daha da pisləşməməsi istiqamətində ciddi addımlar atdı. Məlum olduğu kimi, həmin siyasət bu gün də davam etdirilir. Əmək haqqı, pensiya və müavinətlərin mövcud imkanlar daxilində artırılması ilə yanaşı, strateji ərzaq məhsulları olan un və çörəyin qiymətinin artımının qarşısını almaq istiqamətində ciddi qərarlar verildi. Bu isə bir daha Azərbaycan dövlətinin sosial dövlət olduğunu nümayiş etdirdi. Ölkə Prezidenti konfransdakı nitqində son 12 ildə sosial sahədə əldə edilən uğurlardan da bəhs etdi: "Maaşlar təxminən beş dəfə, pensiyalar yeddi dəfə artıb. 89 köçkün qəsəbəsi tikilmişdir, 225 min insan yeni evlərə, mənzillərə köçürülmüşdür. Hesab edin ki, böyük bir şəhər tikmişik, yaratmışıq."

Ölkə başçısı xüsusi olaraq vurğulayır ki, Azərbaycanda güclü sosial siyasət aparılır, aparılacaq və imkan daxilində bütün sosial proqramlar daha da geniş icra ediləcək: "Bu ilin planları ilə bağlı ilk növbədə demək istəyirəm ki, bütün sosial proqramlar tam icra ediləcək. Bildiyiniz kimi, maaşlar, pensiyalar və sosial müavinətlər qaldırıldı. Sosial müdafiə bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Azərbaycan bazar iqtisadiyyatına sadiqdir. Bazar iqtisadiyyatı Azərbaycanda uğurla inkişaf edir. Ancaq islahatları aparərkən biz hər zaman sosial məsələləri yadda saxlamalıyıq. Unutmamalıyıq ki, biz xalq üçün çalışırıq. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Onun problemlərini biz həll etməliyik. Ona görə, bizim bütün səylərimiz, o cümlədən iqtisadi inkişaf bu məqsədə qulluq etməlidir. Ona görə, Azərbaycanda güclü sosial siyasət aparılır, aparılacaq və imkan daxilində bütün sosial proqramlar daha da geniş şəkildə icra ediləcək."

İnsanların sosial şəraitinin yaxşılaşdırılması iqtisadi-sosial islahatların həyata keçirilməsinə, iqtisadi inkişaf prosesində hər bir vətəndaşın iştirakını təmin etməyə müsbət təsir göstərir. Bu isə o deməkdir ki, dövlət xalqa xidmət edən sosial infrastrukturun yaradılmasını yenə də diqqət mərkəzində saxlayır, bu sahədə nəzərdə tutulan işləri həyata keçirmək üçün əlavə yollar və imkanlar axtarır. Konfransda dövlətimizin başçısı vurğuladı ki, regionlarda bu il nəzərdə tutulan infrastruktur layihələri icra edilməlidir: "Bir çox layihələr artıq icra edilib. Ancaq hələ elektrik enerjisi və qazlaşma ilə bağlı, xüsusilə kənd yollarının tikintisi ilə bağlı görüləsi işlər çoxdur. Hesab edirəm ki, kənd yollarının tikintisinə bu il əlavə böyük vəsait ayrılmalıdır. Çünki ilk növbədə buna ehtiyac var. Yerlərdən təkliflər irəli sürülür. Eyni zamanda bu bölgələrdə insanlar bu işlərə cəlb ediləcək və işsizlik də aradan qaldırılacaq. İşsizliyə qarşı son illər ərzində çox fəal işlər görmüşük. Və bunun nəticəsidir ki Azərbaycanda işsizlik son illər ərzində 5 faizə düşüb. Bu, doğrudan da bizim tarixi nailiyyətimizdir. Yoxsulluq da işsizliklə bərabər, 5 faizə düşüb. Amma indiki şəraitdə işsizlik arta bilər. Düzdür, artıq yeni iş yerləri açılır və iş yerləri bağlanır. Keçən il ölkədə 80 mindən çox daimi iş yeri açılmışdı, 40 min iş yeri bağlanmışdı. Bu il biz bu statistikanı düzgün aparmalıyıq. O yerlərdə, o bölgələrdə ki iş yerləri bağlanıb, orada daha böyük işlər görülməlidir. Həm dövlət qurumları, həm özəl sektorlar bu məsələni diqqətdə saxlamalıdır."

Bütün bunlar dövlətin siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını bir daha təsdiqləyir. Azərbaycanda reallaşdırılacaq infrastruktur layihələri, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, dövlət başçısı tərəfindən irəli sürülən mühüm təşəbbüslər ölkəmizin sosial-iqtisadi tərəqqisini xeyli sürətləndirəcək, əhalinin həyat səviyyəsinin bir qədər də yaxşılaşmasına səbəb olacaq.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***